Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Regionların sosial-iqtisadi inkişafı

# Azərbaycanın regionlarından böyük inkişaf xəbərləri...

**Regionlar təkcə inzibati-ərazi quruluşu deyil, həm də ölkənin bütün iqtisadi sisteminin mühüm tərkib hissəsidir. Təbii-coğrafi, sosial-iqtisadi, demoqrafik və digər xüsusiyyətləri ilə müəyyən edilən məhsuldar qüvvələrin məcmusunu təmsil edən region milli miqyasda iqtisadi inkişafın çox önəmli mərkəzi halqasıdır.**

İnkişaf edən, indi daha sürətlə dirçələnAzərbaycan regionları bütün ölkə iqtisadiyyatının inkişafına öz töhfəsini verir. Buna görə də, iqtisadiyyatda dəyişikliklərə səbəb olan müxtəlif amillərin təsirinə ə indiki dövrdə regionların daha tez məruz qalması da özünü göstərir.

### Regionlar əhalinin həyat keyfiyyətinin yaxşılaşdırılması üçün mühüm mənbədir

Regionların sosial-iqtisadi inkişafı dövlət maraqlarının məcmusundan həmişə aktual və prioritet istiqamət kimi seçilib. Təhlillər göstərir ki, elə bundan sonra da regionlara yüksək diqqət olacaq, çünki hər bir region vahid dövlətin tərkib hissəsi olmaqla onun tarixinə, daxili siyasi, iqtisadi, mədəni həyat, beynəlxalq aləmdə müəyyən nəticələrin əldə edilməsinə ciddi təsir edir. Bölgələrin təsərrüfat fəaliyyətinin onların ərazilərinin məhsuldar qüvvələrinin qarşılıqlı təsiri yolu ilə təşkili isə ölkənin vahid təsərrüfat kompleksini təşkil edir. Məhz regionlarda iqtisadi həyatın aktivləşməsi bütün ölkə üzrə iqtisadi artım meyllərini müəyyən edir.

Beləliklə, aydındır ki, regionların sosial-iqtisadi inkişafı konsepsiyalarının hazırlanması ilə bağlı problemlərin tədqiqi onların daxilində mövcud olan resurslardan istifadənin optimallaşdırılmasına və hər bir regionun inkişafının əsas prioritetlərinin seçilməsinə yönəldilir. Bu da təsadüfi deyil. Bəllidir ki, inkişaf tərəqqinin hərəkətverici qüvvəsidir, onun maddi əsasıdır. Geniş, fəlsəfi mənada inkişaf dedikdə, sosial münasibətlərin müəyyən elementlərinin və ya cəmiyyətin maddi elementlərinin təkmilləşdirilməsi, prinsipial olaraq yeni keyfiyyət xüsusiyyətlərinə keçid prosesi başa düşülür. İnkişafın özəyini əhalinin və sərvətin kəmiyyətcə artımını, keyfiyyətcə yeni əsas vəsaitlərin və dəyərlərin, hadisə və proseslərin meydana gəlməsini, bütün iqtisadi və sosial sistemin dərin modernləşdirilməsini və yenidən qurulmasını özündə ehtiva edən iqtisadi tərəqqi təşkil edir. Bu mənada təbiidir ki, iqtisadi inkişaf hər bir cəmiyyətin, dövlətin mühüm məqsədidir. Belə iqtisadi inkişaf üçün regionların mühüm rol oynayır. Çünki regionların iqtisadi inkişafı əhalinin həyat keyfiyyətinin yaxşılaşdırılması üçün əsas yaradır və mühüm mənbədir. İqtisadi inkişafın bir-birindən asılı prosesləri zamanı vətəndaşların gəlirlərinin, istehlakının, əhalinin qazancının artırılması üçün ilkin şərtlər yaradılır. Həm də şəxsiyyətin cəmiyyətdə nüfuzunun artırılmasına yönəlmiş sosial, siyasi, iqtisadi və institusional sistemlərin formalaşması nəticəsində insanların özünəinamının artmasına kömək edən şərait yaradılır. Yəni, iqtisadi inkişaf, bir qayda olaraq, sosial sahənin tərəqqisi üçün ilkin şərtlər yaradır, buna görə də sırf iqtisadi xüsusiyyətlərlə yanaşı, inkişafın sosial göstəriciləri də nəzərə alınır. Bütün bunlar fonunda regionların inkişafındakı irəliləyişlərə həm iqtisadiyyat, həm də sosial sahə nöqteyi-nəzərindən baxmaq lazımdır. Bu fonda tamamilə təbiidir ki, ölkəmizdə regionlarının inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Regionların inkişafı sahəsində qəbul edilmiş və həyata keçirilmiş dövlət proqramlarında, eləcə də regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı digər sənədlərdə nəzərdə tutulmuş vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin, iş yerlərinin açılmasına və nəticədə, əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına səbəb olub. Hazırda bu istiqamətdə zəruri addımlar atılması davam edir.



### Regionlarda iqtisadi artım həm strukturuna, həm də məzmununa görə yeni xarakter alır

Bu gün Azərbaycanın regionları öz sosial-iqtisadi inkişaflarında dinamikliyi ilə seçilir. Regionlarda iqtisadi artım həm strukturuna, həm də məzmununa görə yeni xarakter alır. Bu da əhalinin sosial rifahı, onun səviyyəsi təkcə iqtisadi nailiyyətlərlə deyil, həm də ekoloji təhlükəsizlik dərəcəsinin yüksəlməsinə gətirib çıxarır.

İndi həm regionların, həm də ölkənin inkişafı üçün milli iqtisadiyyatın sahələrinin sənaye və kənd təsərrüfatı məhsullarının istehsal həcmi, investisiya qoyuluşu sürətlə artır. Buada o da qeyd olunmalıdır ki, qeyri-neft sənayesinin inkişaf etdirilməsi üçün ölkənin regionlarında güclü iqtisadi potensial mövcuddur. İndi bu potensialdan daha səmərəli istifadə ön plandadır. "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" nın uğurlu icrası öz müsbət nəticələrini verir. Kənd təsərrüfatı, turizm, informasiya-kommunikasiya texnologiyaları, emal sənayesi Azərbaycan regionlarda sürətlə inkişaf edən sahələrdir. Bununla yanaşı, regionlarda sənaye parklarının və aqroparkların yaradılması ölkə iqtisadiyyatının ixrac, rəqabət qabiliyyətinin, idxalı əvəz edən məhsulların istehsalının artırılması, bölgələrdə məşğulluğun təmini, investisiyaların və müasir texnologiyaların cəlb edilməsi kimi prioritet vəzifələrin həyata keçirilməsində mühüm rol oynayır. Burada xatırladaq ki, sənaye məhəllələrində və aqroparklarda fəaliyyət göstərən sahibkarların fəaliyyətinin stimullaşdırılması üçün genişmiqyaslı vergi güzəştləri mövcuddur. Bu hal xüsusən işğaldan azad edilmiş ərazilərdə özünü daha qabarıq formada büruzə verir. Burada daha bir mühüm məsələ ekoloji vəziyyətin yaxşılaşdırılmasında regionların rolunun artmasıdır.

Məsələn, "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq ətraf mühitin mühafizəsi, təbii sərvətlərdən istifadə, yaşıllaşdırma, meşəliklərin salınması istiqamətində işlər 2022-ci il ərzində uğurla davam etdirilib. Belə ki, hesabat dövründə proqram çərçivəsində regionlarda meşə fondu ərazilərində 1,5 milyondan çox ağac əkilib, 1373,9 hektar sahədə meşəsalma və meşəbərpa işləri yerinə yetirilib. Bütün bunlar nəticə etibarı ilə regionların ekoloji durumun yaxşılaşmasında rolunun artdığını göstərir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**